

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 238 (21.390)

4 dekabr 2015-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiymətı 20 qəpik


## Rəsmi xronika



Dekabrın 3-də Azərbaycan Respublikasına rəsmi səfərə gələn Türkiyə Respublikasının Baş naziri Əhməd Davudoğlunun rəsmi qarşılanma mərasimi olub.

Rəsmi qarşılanma mərasimi başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasının Baş naziri Əhməd Davudoğlu ilə təkbətək görüşü olub.

Dekabrın 3-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasının Baş naziri Əhməd Davudoğlu ilə geniş tərkibdə görüşü keçirilib.

Geniş tərkibdə görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Baş naziri Əhməd Davudoğlu mətbuata bəyanatlarla çıxış ediblər.

## Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Zəngin mədəniyyəti, qədim tarixi, dövlətçilik ənənələri və yüksək potensialı olan Naxçıvan Muxtar Respublikası Azərbaycanın iqtisadi, siyasi və mədəni həyatında xüsusi yer tutur, ölkəmizin inkişafında mühüm rol oynayır.

Son illərdə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı və infrastruktur layihələrinin yerinə yetirilməsi sahəsində mühüm tədbirlər görülmüş, müasir avadanlıqlarla təchiz olunmuş yeni təhsil və səhiyyə müəssisələri, idman və turizm obyektləri, mədəniyyət və incəsənət ocaqları inşa olunmuş, bir çox tarixi abidələr bərpa edilmiş, iri sənaye kompleksləri, emal və istehsal sahələri, elektrik stansiyaları istismara verilmiş, Naxçıvan Beynəlxalq Hava Limanının "Şərq Terminalı", Naxçıvan şəhərinin su və kanalizasiya şəbəkəsi yenidən qurulmuş, avtomobil yolları çəkilmiş, küçə və meydanlar, istirahət parkları salınmış, genişmiqyaslı abadlıq-quruculuq işləri həyata keçirilmişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Naxçıvan Muxtar Respublikasında abadlıq-quruculuq işlərinin davam etdirilməsini, habelə "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nda müəyyən olunmuş tədbirlərin həyata keçirilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının daha da sürətləndirilməsi üçün Azərbaycan Respublikasının 2015-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə 7,0 (yeddi) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu sərəncamın 1-ci hissəsində nəzərdə tutulan məbləğdə maliyyələşməni müəyyən olunmuş qaydada təmin etsin.

**İlham ƏLİYEV**

**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 2 dekabr 2015-ci il*

## "Naxçıvan 1995-2015: Hədəflər, inkişaf, nəticələr" mövzusunda elmi konfrans keçirilir

***Dekabrın 3-də Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Naxçıvan Bölməsində "Naxçıvan 1995-2015: Hədəflər, inkişaf, nəticələr" mövzusunda ikigünlük elmi konfrans öz işinə başlamışdır.***

Konfransı giriş sözü ilə açan AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev bildirmişdir ki, 1995-2015-ci illərdə muxtar respublikada böyük quruculuq proqramı gerçəkləşdirilmiş, bütün sahələrdə mühüm nailiyyətlər əldə olunmuşdur. Son 20 ildə muxtar respublikada aparılan genişmiqyaslı quruculuq tədbirləri, regionun hərtərəfli inkişafı beşminillik şəhər mədəniyyəti tarixinə malik Naxçıvanda heyrətamiz bir inkişaf dövrü kimi yaddaşlarda yaşayacaqdır.

"Naxçıvan Muxtar Respublikası yeni inkişaf mərhələsində" mövzusunda məruzə ilə çıxış edən iqtisadiyyat və sənaye naziri Famil Seyidov qeyd etmişdir ki, son 20 ildə həyata keçirilmiş iqtisadi islahatlar qısa dövr ərzində muxtar respublikada makroiqtisadi sabitliyin bərqərar olmasını təmin etmiş, iqtisadiyyatın dinamik inkişafına təkan vermişdir. Ümumi daxili məhsulun həcmi 1995-ci ilə nisbətən 54,7 dəfə artaraq 2 milyard 391 milyon manat təşkil etmişdir. Hər bir nəfərə düşən ÜDM-in həcmi 41,4 dəfə artaraq 5465 manat olmuşdur.

Bildirilmişdir ki, mövcud resurslardan səmərəli istifadə etməklə hədəflərə yönələn məqsədli dövlət proqramlarının uğurlu icrası nəticəsində yüksək texnologiyalar əsasında mebel, maşınqayırma, metallurgiya, kimya, mədənçıxarma, yüngül və yeyinti sənayesi, kənd təsərrüfatı təyinatlı 852 istehsal və xidmət sahəsi yaradılmışdır. 1995-ci ilin sonuna muxtar respublikada 56 sənaye müəssisəsi fəaliyyət göstərirdisə, ötən dövr ərzində bu müəssisələrin sayı 7,8 dəfə artmış, sənaye məhsulunun həcmi 97,6 dəfə artaraq 891 milyon manatdan çox olmuşdur. Muxtar respublikada fəaliyyəti bərpa edilmiş və ya yeni qurulmuş müəssisələrdə istehsal olunan məhsulların növü 361-ə çatmış, 343 növdə məhsula olan tələbatın tamamilə yerli istehsal hesabına ödənilməsi təmin edilmişdir.

Vurğulanmışdır ki, blokada şəraitinin yaratdığı çətinliklərə görə energetika sahəsində ciddi problemlərlə üz-üzə qalan muxtar respublikaya uzunmüddətli fasilədən sonra təbii qaz nəqli bərpa olunmuşdur. 1995-ci ilədək muxtar respublikada cəmi bir elektrik enerjisi istehsal edən müəssisə fəaliyyət göstərirdisə, keçən müddət ərzində bu sahədə aparılan məqsədyönlü tədbirlər nəticəsində enerji istehsalı müəssisələrinin sayı 8-ə, ümumi gücü 237,4 meqavata çatdırılmışdır. Hazırda Ordubad rayonunda 36 meqavat gücündə su elektrik stansiyasının inşası davam etdirilir. Muxtar respublikamızda ilk dəfə olaraq 20 meqavat gücündə Günəş Elektrik Stansiyası istifadəyə verilmişdir. Bu gün muxtar respublikamız elektrik enerjisi idxal olunan regiondan elektrik enerjisi ixrac edən regiona çevrilmişdir.

Nəzərə çatdırılmışdır ki, muxtar respublikada aqrar sektorun inkişafına da xüsusi diqqət göstərilir. "2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı" və "2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"nın uğurlu icrası nəticəsində aqrar sektorun çoxsahəli sabit inkişafına nail olunmuşdur. Belə ki, 1995-ci illə müqayisədə kənd təsərrüfatı bitkilərinin əkin sahəsi 25,5 min hektardan 61,4 min hektara çatdırılmışdır. Aqrar sektorun inkişafı və əhalinin ərzaq məhsullarına olan tələbatının ödənilməsində xüsusi önəm daşıyan sahələr üzrə dövlət maliyyə dəstəyi ilə 230 heyvandarlıq, 64 ətlik və yumurtalıq istiqamətində quşçuluq, 95 arıçılıq, 72 bağçılıq və 13 balıqçılıq təsərrüfatı yaradılmışdır.

"1995-ci ildə muxtar respublika iqtisadiyyatına yönəldilmiş investisiyaların həcmi 3 milyon 49 min manat idisə, bu göstərici ötən müddət ərzində 303,3 dəfə artaraq 925 milyon manat təşkil etmişdir. Ümumilikdə, son 20 ildə muxtar respublika iqtisadiyyatına 6 milyard 276 milyon manat investisiya yönəldilmişdir", – deyən Famil Seyidov qeyd etmişdir ki, bu gün naxçıvanlı sahibkarların istehsal etdiyi məhsulların sorağı artıq onun hüdudlarını aşmışdır. Muxtar respublikada fəaliyyət göstərən ixrac potensiallı 40 müəssisədə istehsal olunan ixracyönümlü məhsullar Türkiyə, Ukrayna, Qazaxıstan, Gürcüstan, Belarus, Litva, Türkmənistan, Rusiya və İran kimi ölkələrə göndərilir.



"Naxçıvan Muxtar Respublikasında təhsilin inkişafı" mövzusunda məruzə ilə çıxış edən təhsil naziri Piri Nağıyev bildirmişdir ki, blokada şəraitinin çətinliklərinə baxmayaraq, muxtar respublikada təhsilin inkişafında mühüm irəliləyişlər əldə edilmişdir. Son 20 ildə Naxçıvan Muxtar Respublikasının şəhər, kənd və qəsəbələrində 200-dən çox təhsil müəssisəsi tikilərək və ya əsaslı şəkildə yenidən qurularaq istifadəyə verilmişdir. Ümumtəhsil məktəblərinə 3700 dəst müasir kompüter verilmiş, onların 84 faizi internetə qoşulmuşdur. Bununla yanaşı, təhsilin informasiya mühitinin yaradılması məqsədilə ümumtəhsil məktəblərində 600-dən çox elektron lövhə quraşdırılmışdır.

Vurğulanmışdır ki, təhsilin dövlət səviyyəsində himayə olunması sayəsində muxtar respublikada yüksək təhsil mühiti formalaşmış, həm kəmiyyət, həm də keyfiyyət baxımından irəliləyişlər əldə olunmuşdur. 1995-2015-ci illər ərzində ümumtəhsil məktəblərinin ali təhsil müəssisələrinə tələbə qəbulunun nəticələri bunun əyani sübutudur. 1995-1996-cı tədris ilində ümumtəhsil məktəblərini bitirmiş 3512 məzundan 1301 nəfəri ali təhsil müəssisələrinə qəbul üçün sənəd vermiş və onlardan 401 nəfəri respublikamızın müxtəlif ali təhsil ocaqlarına qəbul olunmuşdur. 2014-2015-ci tədris ilində isə ümumtəhsil məktəblərini 3331 məzun bitirmiş, onlardan 2638 nəfəri, məktəbi bitirənlərin 79,2 faizi ali məktəblərə qəbul üçün sənəd vermişdir. Qəbul imtahanlarında iştirak edən abituriyentlərdən 1582 nəfəri ali məktəblərə qəbul olunmuşdur ki, bu da sənəd verənlərin 60 faizini təşkil edir. Ali məktəblərə qəbul olunanlardan 313 nəfəri 500-700 intervalında bal toplamışdır.

"Naxçıvan Muxtar Respublikasında mədəniyyətin inkişafı" mövzusunda məruzə ilə çıxış edən mədəniyyət və turizm naziri Natəvan Qədimova demişdir ki, muxtar respublikada mədəniyyət və incəsənətimizin bütün sahələrinə göstərilən diqqət və qayğı qədim diyarımızda mədəni yüksəlişin hərtərəfli inkişafını təmin etmişdir. 1995-2015-ci illər ərzində mədəni irsimizin qorunması, yeni muzeylərin yaradılması, xalq yaradıcılığının inkişaf etdirilməsi, tarixi abidələrin mühafizəsi və bərpası, görkəmli şəxsiyyətlərimizin xatirəsinin əbədiləşdirilməsi və yubileylərinin qeyd olunması ilə bağlı Ali Məclisin Sədri tərəfindən 100-dən çox fərman və sərəncam imzalanmışdır.

Diqqətə çatdırılmışdır ki, bu gün Naxçıvan Muxtar Respublikasında 1200-dən çox tarix və mədəniyyət abidəsi qeydə alınmışdır. Son 20 ildə muxtar respublikada 70-ə yaxın tarix və mədəniyyət abidəsi əsaslı şəkildə bərpa və təmir olunmuşdur. Hazırda Əlincəqalada və Gülüstan türbəsində bərpa işləri başa çatmaq üzrədir. Əgər 1997-ci ilədək Naxçıvan Muxtar Respublikasında 13 muzey vardısa, hazırda qədim diyarımızda 28 muzey və muzeytipli müəssisə fəaliyyət göstərir.

Bildirilmişdir ki, 1995-2015-ci illərdə muxtar respublikada gedən mədəni yüksəliş kitabxanalara da öz təsirini göstərmişdir. Muxtar respublikanın bölgələrində inşa olunan 100-dən çox kənd mərkəzində kitabxanalar üçün nümunəvi şərait yaradılmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Məmməd Səid Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasının 90 illik yubileyinin keçirilməsi haqqında" 19 aprel 2012-ci il tarixli Sərəncamına uyğun olaraq burada elektron kitabxana yaradılmışdır.

AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev "Naxçıvan Muxtar Respublikasında elmin inkişaf səviyyəsi" mövzusundakı məruzəsində bildirmişdir ki, AMEA-nın Naxçıvan Bölməsinin yaradılması strateji məqsədlərə hesablanmış və muxtar respublikada elmin daha da inkişaf etməsinə geniş imkanlar açmışdır. Naxçıvan Dövlət Universiteti, Naxçıvan Müəllimlər İnstitutu və "Naxçıvan" Universitetinin professor-müəllim heyəti də Naxçıvanda elmin inkişafında, elmi kadrların hazırlanmasında yaxından iştirak edir. Hazırda muxtar respublikada 35 nəfər elmlər doktoru, 195 nəfər fəlsəfə doktoru fəaliyyət göstərir. Azərbaycan Milli Elmlər Akademiyasına 2003, 2007 və 2014-cü illərdə keçirilən seçkilərdə Naxçıvandan olan elm adamlarından 3 nəfəri akademik, 13 nəfəri müxbir üzv seçilmişdir.

Qeyd olunmuşdur ki, AMEA Naxçıvan Bölməsinin 6 elmi-tədqiqat müəssisəsinin 100-ə yaxın elmi işçisi, ali təhsil müəssisələrinin 420 nəfər professor-müəllim heyəti elmi-tədqiqat işləri ilə bu və ya digər səviyyədə məşğuldurlar. Onların apardıqları elmi-tədqiqat işlərinin nəticələri dünyanın müxtəlif ölkələrinin ən nüfuzlu jurnallarında, ölkəmizin və muxtar respublikamızın elmi jurnallarında dərc edilir. 1995-2015-ci illərdə muxtar respublika tədqiqatçılarının 208 monoqrafiyası, 750-yə yaxın kitabı, 320-dən çox dərslik, dərs və tədris vəsaiti, 18 min 342 məqalə və tezisi nəşr edilmişdir.

Konfrans bölmə iclasları ilə öz işini davam etdirir.

**Rauf ƏLİYEV**

**Ulu öndər Heydər ƏLİYEV:** ***Bizim zəngin tariximiz, qədim mədəniyyətimiz və milli-mənəvi dəyərlərimiz “Kitabi-Dədə Qorqud” eposunda öz əksini tapmışdır. Bu epos bizim ümumi sərvətimizdir və hər bir azərbaycanlı onunla haqlı olaraq fəxr edə bilər. Dastanın məzmununu, mənasını, onun hər bir kəlməsini hər bir azərbaycanlı məktəbdən başlayaraq bilməlidir. Bu, bizim ana kitabımızdır və gənclik bu kitabı nə qədər dərindən bilsə, millətini, xalqını, vətənini, müstəqil Azərbaycanı bir o qədər çox sevəcəkdir.***

*Azərbaycanın özü qədər əbədi*

# Ulu öndər Heydər Əliyev “Kitabi-Dədə Qorqud” dastanına böyük dəyər verib, onun təbliğini diqqət mərkəzində saxlayıb



***Ulu öndərimiz Heydər Əliyevin çoxşaxəli möhtəşəm fəaliyyətində və mükəmməl nəzəri-ideoloji təlimində ədəbiyyat məsələləri də mühüm yer tutur. Bu baxımdan ümummilli liderimizin “Kitabi-Dədə Qorqud” dastanına münasibəti, bu qiymətli eposa göstərdiyi hərtərəfli diqqət böyük əhəmiyyət daşıyır. Bu da təsadüfi deyil. Çünki bəşər sivilizasiyasına misilsiz töhfələr bəxş etmiş Azərbaycanımızın ən möhtəşəm ədəbi abidələri sırasında “Kitabi-Dədə Qorqud”un xüsusi yeri vardır. Xalqımızın qədim adət-ənənələri, dünyagörüşü, yaşam tərzi, məişəti, zəngin mənəvi keyfiyyətləri, qəhrəmanlıq ruhu, mərdliyi, doğma torpağa bağlılığı, yurd sevgisi eposda mükəmməl şəkildə ifadə olunmuşdur.***

Ümummilli lider Heydər Əliyev hələ Azərbaycana birinci rəhbərliyi dövründə dastanın hərtərəfli şəkildə təbliği, tədqiqi məsələlərinə diqqət yetirmiş, bu sahədə əsaslı tədbirlərin həyata keçirilməsinin təşəbbüskarı və himayəçisi olmuşdur. 1975-ci ildə ikihissəli “Dədə Qorqud” bədii filminin çəkilməsi nəticəsində dastan xalq arasında çox böyük populyarlıq qazanmışdır. O illərdə bu möhtəşəm eposun araşdırılması sahəsində bir sıra mühüm əsərlər ortaya çıxmış, dastanın motivləri əsasında müxtəlif bədii nümunələr də yazılmışdır.

Ulu öndər Heydər Əliyev müstəqil Azərbaycana rəhbərliyi dövründə də “Kitabi-Dədə Qorqud”a böyük dəyər vermiş və ardıcıl diqqət göstərmişdir. Görkəmli dövlət xadiminin 20 aprel 1997-ci il tarixli Fərmanı əsasında “Kitabi-Dədə Qorqud”un 1300 illiyinin geniş şəkildə qeyd edilməsi üçün hərtərəfli tədbirlər həyata keçirilmiş, respublikamızda və bir sıra xarici ölkələrdə elmi konfranslar təşkil olunmuşdur. 1998-ci ildə YUNESKO-da beynəlxalq simpoziumun təşkili eposun dünya miqyasında təbliği işinə ciddi töhfə idi. 2000-ci ildə ikicildlik “Kitabi-Dədə Qorqud” ensiklopediyası”nın nəşri də bu baxımdan böyük önəm daşıyır. Elə həmin il dastanın 1300 illiyi ilə əlaqədar Bakıda möhtəşəm zirvə tədbiri keçirilmişdir. Folklorumuzun möhtəşəm abidəsinin müxtəlif aspektlərdə və yeni təfəkkür işığında öyrənilməsi sahəsində də ciddi araşdırmalar ortaya çıxmışdır. Ümumiyyətlə, “Kitabi-Dədə Qorqud”un 1300 illik yubileyinin qeyd olunması barədə fərman eposun təbliği və tədqiqi baxımından son dərəcə böyük əhəmiyyətə malikdir. Ulu öndər Heydər Əliyev bu barədə demişdir: ***“Fərmanın ən böyük əhəmiyyəti ondan ibarətdir ki, o, “Kitabi-Dədə Qorqud” dastanının ən azı 1300 il yaşı olduğunu dünyaya nümayiş etdirdi. Bu fərmanla biz bildirdik ki, “Kitabi-Dədə Qorqud” dastanı bütün Türk dünyasına məxsusdur, onun vətəni Azərbaycandır, sahibi Azərbaycan xalqıdır, müstəqil Azərbaycan dövlətidir”.***

Xalqımızın böyük oğlu Heydər Əliyev həmin fərmanadək görülmüş işləri, H.Araslı, M. Təhmasib, Ə.Dəmirçizadə, F.Zeynalov, S.Əlizadə və digər qorqudşünas alimlərin araşdırmalarını, müxtəlif ədiblərin dastanın motivləri əsasında qələmə aldıqları ədəbi əsərləri, çəkilmiş bədii filmi yüksək qiymətləndirmiş, bütün bunları eposun təbliği və tədqiqi sahəsində birinci mərhələnin uğurları saymış, yubiley barədə fərman verilməsi ilə həyata keçirilən çoxşaxəli tədbirləri ikinci mərhələnin başlanması kimi dəyərləndirmişdir.

“Kitabi-Dədə Qorqud”u ***“Azərbaycan tarixinin, mədəniyyətinin, elminin, ədəbiyyatının ən görkəmli, ən parlaq abidəsi”*** sayan dahi rəhbərin diqqət yönəltdiyi başqa bir məqam da vətənimiz və xalqımız üçün bu eposun möhtəşəm dəyərini dəqiqliklə önə çəkir. Ulu öndər deyirdi: ***“Kitabi-Dədə Qorqud” dastanının fövqəladə əhəmiyyəti ondan ibarətdir ki, o, bizim tariximizin 1300 illik dövrünü həm əks etdirir, həm də bir daha təsdiq edir. O, tarixi köklərimizi dünyaya göstərir, oğuz, türk mənşəyimizi və zəngin tariximizi sübut edir. Bunlar bizim hamımız üçün, xalqımızın bu günü, gələcəyi üçün əhəmiyyətlidir”.***

Dünya elmində “Kitabi-Dədə Qorqud”un bir qədim epos olaraq istər etnik, mənşə, istər tarixi-coğrafi, ərazi, istərsə də dil və məfkurə baxımından Azərbaycan xalqına mənsubluğu barədə qəti qənaətlərin varlığını xüsusi vurğulayan ümummilli liderimiz bunu dastanın tariximiz üçün ən böyük, ən əsas və ən birinci xidməti kimi dəyərləndirmişdir. “Kitabi-Dədə Qorqud”u qəhrəmanlıq eposu kimi yüksək dəyərləndirən dahi rəhbər diqqəti həm də ona yönəltmişdir ki, bu dastan ***“bir cəngavər, bir igid haqqında yox, bütöv bir xalqın qəhrəmanlığını özündə cəmləşdirən bir eposdur. Onun ən böyük ideyası baş sərkərdədən tutmuş böyükdən-kiçiyə kimi bütün qəhrəmanlarının doğma torpaqlarını qorumaq uğrunda canlarından keçməyə daim hazır olduqlarını göstərməkdir”.***

Dastanın belə məziyyətlərinin çağdaş nəsillərin vətənpərvərlik və qəhrəmanlıq ruhunda tərbiyəsində böyük önəm daşıması barədə də dahi rəhbərin mühüm fikirləri vardır.

“Kitabi-Dədə Qorqud”a bütün incəliklərinə qədər bələd olan ulu öndər folklorumuzun bu möhtəşəm abidəsində böyüyə hörmət, ata-anaya məhəbbət, iman və etiqad, namus və qeyrət, ailəyə, torpağa, vətənə sədaqət kimi insani keyfiyyətlərin ifadəsini də yüksək qiymətləndirmiş, bu mənəvi məziyyətlərin yüz illər boyu yaşadıldığını, nəsildən-nəslə ötürüldüyünü, Qorqud övladlarının qanına ana südü ilə, ata nəfəsi ilə birlikdə daxil olduğunu, son mənzilə qədər də onlarla birlikdə getdiyini nəzərə çatdırmış, dəqiqliklə bu nəticəyə gəlmişdir ki: ***“Kitabi-Dədə Qorqud” həm də bizim etika kitabımız, əxlaq kodeksimizdir”.***

Dastanın bütün ideya-bədii strukturunda mühüm yer tutan əxlaqi-etik qayə və prinsiplərin çağdaş mərhələdəki rolu da dahi rəhbər tərəfindən layiqincə qiymətləndirilmişdir: ***“Müasir dövrdə azərbaycanlıların mentalitetində milli və ümumbəşəri dəyərlərin yerinin müəyyənləşdirilməsi də Dədə Qorqudun etik prinsiplərindən çıxış etməklə gerçəkləşir”.*** “Kitabi-Dədə Qorqud”un mənəvi və estetik dəyərlərin vəhdətini özündə əks etdirməsi məsələsinə də diqqət yetirən ulu öndər dastanı həm də ***“bizim milli estetikamızın mötəbər qaynağı”*** kimi nəzərdən keçirmiş və yüksək dəyərləndirmişdir.

Dastandakı Dədə Qorqud obrazı barədə də görkəmli dövlət xadimi Heydər Əliyevin mühüm fikirləri vardır. Ümummilli liderimiz həmin obrazın əsas mahiyyətini, onun hikmətli kəlamlarının müasirlik ruhunu, heç zaman əhəmiyyətini itirmədiyini belə səciyyələndirmişdir: ***“Əsərin bütün boylarında Dədə Qorqud nurani el ağsaqqalı və müdrik filosof keyfiyyətlərini daşıyan ozan olaraq çıxış edir. Dədə Qorqud fəlsəfəsi arxaik olduğu qədər də müasirdir”.***

Bütün digər sahələrlə yanaşı, ədəbiyyat və mədəniyyətə, o cümlədən “Kitabi-Dədə Qorqud”a da yaxından bələd olan dahi mütəfəkkirin aşağıdakı qiymətli fikirləri isə bu eposu dilimizin, düşüncə sistemimizin möhtəşəmliyini ifadə edən ulu qaynaq kimi dəyərləndirir: ***“Azərbaycan xalqının tarixinin, etnik yaddaşının, arxaik təfəkkürünün güzgüsü olan “Kitabi-Dədə Qorqud” nitqimizin, dilimizin, mənəviyyatımızın, ruhumuzun nəğməsi kimi də böyük mədəni-estetik əhəmiyyət kəsb edir”.***

Dastanın hazırkı mərhələdə xalqımızın hər bir nümayəndəsinin, o cümlədən yeniyetmə və gənclərin vətənpərvərlik və qəhrəmanlıq tərbiyəsində, onlarda milli ruha, soykökə bağlılıq qayəsinin formalaşdırılmasında mühüm roluna da ulu öndər Heydər Əliyev böyük önəm vermişdir. Ümummilli liderimiz Heydər Əliyev dastanı bu cəhətdən də yüksək qiymətləndirərək demişdir: ***“Bizim zəngin tariximiz, qədim mədəniyyətimiz və milli-mənəvi dəyərlərimiz “Kitabi-Dədə Qorqud” eposunda öz əksini tapmışdır. Bu epos bizim ümumi sərvətimizdir və hər bir azərbaycanlı onunla haqlı olaraq fəxr edə bilər. Dastanın məzmununu, mənasını, onun hər bir kəlməsini hər bir azərbaycanlı məktəbdən başlayaraq bilməlidir. Bu, bizim ana kitabımızdır və gənclik bu kitabı nə qədər dərindən bilsə, millətini, xalqını, vətənini, müstəqil Azərbaycanı bir o qədər çox sevəcəkdir”.***

Bütün bunlara görə ulu öndər dastanın xalq içərisində geniş şəkildə təbliğ olunmasını, hər bir azərbaycanlının onu dərindən mənimsəməsini tövsiyə etmiş, bu məqsədlə ədəbi-bədii, mədəni-kütləvi xarakterli tədbirlərin həyata keçirilməsini məxsusi vurğulamışdır. Ümummilli lider demişdir: ***“Kitabi-Dədə Qorqud”un elmi nöqteyi-nəzərdən tədqiq edilməsi bizim üçün çox lazımdır. Eyni zamanda “Kitabi-Dədə Qorqud” Azərbaycan ictimaiyyəti, kütlə, xalq üçün tanınmalıdır”.***

O da ayrıca qeyd olunmalıdır ki, ulu öndər “Kitabi-Dədə Qorqud”la bağlı tədbirlərin ardıcıl və müntəzəm xarakter daşımasını, yalnız yubileylə məhdudlaşmamasını vacib saymış və demişdir ki, ***“1997-ci ildə verilmiş fərman gələcək çox illər, on illər üçün böyük perspektiv açıbdır. Biz böyük bir perspektiv plan hazırlamalı və onu ardıcıl surətdə həyata keçirməliyik”***. Bununla əlaqədar olaraq dahi rəhbər eposun tədqiqi və təbliği sahəsində sistemli tədbirlərin davam etdirilməsi, dastan əsasında çoxseriyalı bədii filmin, yaxud böyük bir serialın çəkilməsi, Dədə Qorquda həsr olunan abidə-kompleksin yaradılması barədə də fikirlər irəli sürmüşdür.

***“Kitabi-Dədə Qorqud” dastanı kimi böyük elm, mədəniyyət, ədəbiyyat abidəsi olan xalq öz tarixi ilə fəxr edə bilər!”*** – deyən ulu öndər Heydər Əliyevin siyasi kursunu yüksək səviyyədə və hərtərəfli şəkildə davam etdirən ölkə Prezidenti cənab İlham Əliyev bu möhtəşəm dastana münasibətdə də dahi rəhbərin ideyalarını layiqincə həyata keçirir. 13 dekabr 2013-cü il tarixdə respublikamızın paytaxtı Bakı şəhərində Dədə Qorqud abidəsinin və Dədə Qorqud parkının açılışı, epos əsasında çoxseriyalı bədii televiziya filminin çəkilməsi haqqında ölkə Prezidentinin 28 dekabr 2013-cü il tarixli Sərəncamı bu baxımdan xüsusi əhəmiyyət daşıyır. Ölkəmizin rəhbəri dastana yüksək qiymət verərək demişdir: ***“Kitabi-Dədə Qorqud” Azərbaycan xalqının milli sərvətidir. Bu əsərdə Azərbaycan xalqının keçmiş həyat tərzi, məişəti, psixologiyası əks olunmuşdur... Bu dastan hər bir azərbaycanlı üçün əzizdir”.***

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin “Kitabi-Dədə Qorqud”un alman dilində ilk tərcüməsi və nəşrinin 200 illiyinin qeyd edilməsi haqqında” 20 fevral 2015-ci il tarixli Sərəncamında milli-mədəni irsin qorunub yaşadılması və yeni nəsillərin Azərbaycançılıq ruhunda tərbiyə olunmasında “Kitabi-Dədə Qorqud”un böyük əhəmiyyəti məxsusi vurğulanmışdır. Sərəncama uyğun olaraq, bu əlamətdar yubileylə əlaqədar ölkəmizdə sistemli tədbirlər həyata keçirilir.

Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında da “Kitabi-Dədə Qorqud”la əlaqədar çoxsaylı işlər görülmüş və görülməkdədir. Hələ 1999-cu ildə Naxçıvan şəhərində Dədə Qorqud meydanının yaradılması, həmin meydanda Dədə Qorqudun abidəsinin ucaldılması təkcə xalqımızın müdriklik rəmzi olan bu böyük ozana deyil, bütövlükdə, milli-mənəvi dəyərlərə, ədəbi-mədəni irsə ehtiramın ifadəsi kimi mühüm dəyərə malikdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin “Kitabi-Dədə Qorqud”un alman dilində ilk tərcüməsi və nəşrinin 200 illiyinin qeyd edilməsi haqqında” 20 fevral 2015-ci il tarixli Sərəncamına uyğun olaraq, muxtar respublikamızda da sistemli işlər görülür. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin təsdiq etdiyi Tədbirlər Planına əsasən bu yubiley geniş şəkildə qeyd olunur. Keçirilən elmi konfranslar, təşkil olunan açıq dərslər, dəyirmi masalar, kütləvi informasiya vasitələrində verilən müvafiq materiallar və sair bu baxımdan təqdirəlayiqdir. “Naxçıvan Dədə Qorqud” mövzusunda beynəlxalq elmi simpoziumun keçirilməsi də ən mühüm tədbirlər sırasındadır. Bütün bunlar möhtəşəm mənəviyyat abidəmiz olan “Kitabi-Dədə Qorqud”a ulu öndər Heydər Əliyevin göstərdiyi böyük diqqətin uğurlu davamıdır.

Dünya azərbaycanlılarının 2001-ci ildə keçirilmiş birinci qurultayındakı nitqində öz arzularını, xeyir-duasını Dədə Qorqud deyimləri ilə yekunlaşdıran ümummilli liderin müdrik tövsiyələri xalqımız üçün öz müqəddəs dəyərini daima saxlayacaqdır: ***“Harada yaşamasından asılı olmayaraq, hər bir ailəyə, hər bir azərbaycanlıya xoşbəxt həyat və xoşbəxt gələcək arzulayıram! Qoy çaylarımız qurumasın! Qoy ağaclarımız kəsilməsin! Qoy çırağımız sönməsin!***

***Azərbaycan xalqına eşq olsun!***
***Yaşasın müstəqil Azərbaycan, Azərbaycan, Azərbaycan!”***

**Hüseyn HƏŞİMLİ**
*filologiya üzrə elmlər doktoru,*
*Əməkdar elm xadimi*

# Muxtar respublika sakinləri ölkə başçısının Naxçıvana səfərinin xoş təəssüratlarını yaşayırlar

***Sosial-iqtisadi inkişafının yeni mərhələsini yaşayan, günbəgün müasirləşən, Şərqin qapısında mayak kimi parlayan Naxçıvanın tarixinə daha bir əlamətdar və yaddaqalan gün yazıldı. Doğma diyarımızın sakinləri Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin muxtar respublikaya gəlişini yüksək ovqatla, əsl bayram sevinci ilə qarşıladılar və bir neçə gündür ki, həmin səfərin təəssüratları ilə yaşamaqdadırlar. Azərbaycan Prezidenti ənənəvi olaraq, yenə də bir neçə obyektin açılışında iştirak etdi. Dövlət başçısı bu qədim diyarda həyata keçirilən tədbirləri yüksək qiymətləndirdi. Muxtar respublika ziyalıları, istifadəyə verilən müəssisələrin nümayəndələri dövlət başçısının Naxçıvana səfərinin xoş təəssüratlarını bizimlə bölüşdü.***



*Vəli BAXŞƏLİYEV – AMEA-nın müxbir üzvü:*

– Muxtar respublikamızın əsl yüksəlişi ulu öndər Heydər Əliyevin adı və siyasi kursu ilə bağlıdır. Ümummilli liderimiz siyasi fəaliyyətinin həm birinci, həm də ikinci dövründə Azərbaycanın, o cümlədən Naxçıvanın inkişafı üçün fundamental tədbirlər həyata keçirmişdir. Ulu öndərin siyasi kursunu bu gün uğurla davam etdirən ölkə başçısı cənab İlham Əliyev öz fəaliyyəti ilə hər bir Azərbaycan vətəndaşının Prezidenti olduğunu artıq sübuta yetirmişdir. Müntəzəm olaraq ölkəmizin digər regionları ilə yanaşı, qədim diyarımıza da səfərlər edən, bu səfərlərdə görülən işləri yüksək dəyərləndirən dövlət başçısının muxtar respublikaya dekabr ayının 1-dəki səfəri də tarixə düşdü. Cənab Prezidentin muxtar respublikaya səfərinə həmişə sevinirik. Onunla hər bir görüş muxtar respublika sakinlərinin qurub-yaratmaq əzmini yüksəldir. Belə səfərlər mütləq bir neçə yeni obyektin açılışı, yeni obyektlərin yaradılmasına başlanılması ilə xarakterizə edilir.

Dövlət başçısının budəfəki səfəri də muxtar respublika üçün çox mühüm obyektlərin açılışı ilə yadda qaldı. Naxçıvan Muxtar Respublika Xəstəxanası əhalinin sağlamlığının qorunmasına, Günəş Elektrik Stansiyası enerji təhlükəsizliyinin möhkəmləndirilməsinə, Şəkərabad-Babək qəsəbə-Nehrəm-Arazkənd dairəvi avtomobil yolu əhalinin rahatlığına, məktəblər təhsilin və mədəniyyətin inkişafına, sənaye kompleksi muxtar respublika əhalisinin yerli məhsullarla təminatına öz töhfəsini verəcək. Naxçıvan hazırda elə böyük inkişaf dövrünü yaşayır ki, muxtar respublikanın hər bir şəhəri, qəsəbəsi və kəndi daim yeniləşir, gözəlləşir, abadlaşır. Böyük dövlət qayğısını əhali hər gün, hər an hiss edir.

Bütün bunlar isə ulu öndər Heydər Əliyev yolu ilə müzəffər yürüşünü davam etdirən müstəqil Azərbaycanın, onun ayrılmaz tərkib hissəsi olan ulu Naxçıvanın yeni yüksəlişinin, möhtəşəm inkişafının nurlu səhifələridir. Doğma Naxçıvanımızın bugünkü tərəqqisi həm də sabahkı yeni uğurlardan soraq verir.



*Arif RZAYEV – Azərbaycan Respublikasının Əməkdar həkimi:*

– Bu gün muxtar respublikamızın səhiyyə işçiləri bayram əhval-ruhiyyəsi içərisindədirlər. Ölkə başçısı cənab İlham Əliyevin iştirakı ilə Naxçıvan Muxtar Respublika Xəstəxanasının yenidənqurma işlərindən sonra istifadəyə verilməsi bizim hər birimizdə qürur və iftixar hissi doğurub. Bu, onu göstərir ki, Naxçıvan Muxtar Respublikasında səhiyyənin inkişafına xüsusi diqqət yetirilir. Ötən dövrdə şəhər, rayon və kəndlərdə 220-dən artıq səhiyyə müəssisəsinin tikilib istifadəyə verilməsi, onların lazımi tibbi avadanlıqlarla və ixtisaslı kadrlarla təmin olunması muxtar respublika səhiyyəsinin tamamilə müasirləşdirilməsinə səbəb olub.

Naxçıvan Muxtar Respublika Xəstəxanası Naxçıvan səhiyyəsində həmişə mühüm rol oynayaraq şərəfli yol keçib. İndiki xəstəxana binasının tikintisinə ümummilli lider Heydər Əliyevin dəstəyi ilə 1979-cu ildə başlanıb və 1987-ci ildə istifadəyə verilib. Ötən illər ərzində bina istifadəyə yararsız hala düşdüyündən 2013-cü ilin əvvəlindən burada əsaslı təmir və yenidənqurma işlərinə başlanıb. Artıq tibb ocağı istifadəmizə verilib. Bu xəstəxananın istifadəyə verilməsi ilə Naxçıvanda səhiyyə infrastrukturunun yaradılması prosesi başa çatıb. Əsaslı təmir və yenidənqurma işlərindən sonra 300 çarpayılıq xəstəxanada 14 stasionar şöbə fəaliyyət göstərir. 130 həkimin, 467 orta və kiçik tibb işçisinin çalışdığı xəstəxanada elmi-tibbi kitabxana öz zənginliyi ilə diqqəti çəkir.

Açılışdan sonra ölkə Prezidenti xəstəxananın kollektivi və Naxçıvan ictimaiyyətinin nümayəndələri ilə görüşündə dedi: *"Azərbaycanda səhiyyə ilə bağlı kompleks tədbirlər görülür. İlk növbədə səhiyyə infrastrukturu yaradılır. Bunsuz səhiyyəni inkişaf etdirmək mümkün deyil. Həkimlərin hazırlığı istiqamətində işlər aparılır. Müasir avadanlıq alınır. Yəni bu sahədə görülən işlər, əlbəttə ki, səhiyyə sisteminin təkmilləşməsinə gətirib çıxarıbdır. Ancaq görüləsi işlər hələ çoxdur. Biz elə etməliyik ki, Azərbaycanın hər bir yerində insanlar keyfiyyətli tibbi xidmət ala bilsinlər. Bəzi hallarda bəzi vətəndaşlar müalicə üçün xaricə üz tuturlar. Hesab edirəm, biz elə sistem yaratmalıyıq ki, əksinə, xaricdən Azərbaycana müalicə və müayinə üçün gəlsinlər. Əminəm ki, bu xəstəxanada müalicə üçün qonşu ölkələrdə yaşayan, Naxçıvana yaxın bölgələrdən vətəndaşlar da gələ bilərlər və gələcəklər".*

Bunlar hər bir həkim və tibb işçisi qarşısında duran mühüm və şərəfli vəzifələrdir. Biz hər cür şəraitə malik səhiyyə müəssisəsini Naxçıvan səhiyyəsinə, muxtar respublika əhalisinə hədiyyə etdiyinə görə ölkə başçısına dərin minnətdarlığımızı bildirir və əmin edirik ki, bu qayğı müqabilində fəaliyyətimizi daha da artıracaq, qarşıya qoyulan vəzifələrin, tövsiyə və tapşırıqların icrası, əhalinin sağlamlığının qorunması üçün qüvvə və bacarığımızı əsirgəməyəcəyik.



*Aidə FƏTULLAYEVA – Azərbaycan Respublikasının Əməkdar müəllimi:*

– Muxtar respublikada təhsilin inkişafına göstərilən davamlı diqqət və qayğının ifadəsidir ki, son illərdə yüzlərlə məktəb binası tikilərək, yaxud da yenidən qurularaq istifadəyə verilib. Yaşadığım Babək rayonunun Nehrəm kəndində 3 tam orta təhsil müəssisəsi fəaliyyət göstərir. Son illərdə 2 məktəb üçün yeni binalar inşa olunmuşdu. Dekabr ayının 1-də bu sevinci biz də yaşadıq. Ölkə Prezidenti cənab İlham Əliyevin iştirakı ilə həmin gün Nehrəm kənd 2 nömrəli tam orta məktəbin müasir tələblərə cavab verən binasının açılışı oldu. Bu məktəb binası muxtar respublikada tikilən və ya əsaslı şəkildə yenidən qurulan çoxsaylı təhsil müəssisələrindən biridir. Ümumi sahəsi 5165 kvadratmetr olan məktəbin binası üçmərtəbəlidir. Məktəbin tikintisində gələcək perspektiv nəzərə alınıb. Belə ki, təhsil ocağının yeni binası 990 şagird yerlikdir. Hazırda isə məktəbdə 520 şagird təhsil alır. Onların ixtiyarına 42 sinif otağı, kimya, fizika və biologiya fənlərinin tədrisi üçün laboratoriyalar, hərbi kabinet verilib.

Məlumat üçün bildirim ki, hər il məktəbin məzunları yüksək ballarla ali məktəblərə daxil olur, göstərilən etimadı doğruldurlar. Məktəbin məzunu Mənsur Bağırov qəbul imtahanında göstərdiyi nəticəyə görə Prezident təqaüdünə layiq görülüb. Yeni məktəb binasında bizə yaradılan şərait gələcəkdə belə uğurların daha çox olacağına təminat verir. Bizə göstərilən böyük qayğıya görə ölkə Prezidentinə minnətdarlığımızı bildiririk. Bu qayğıya öz əməli işimizlə cavab vermək üçün bütün qüvvəmizi sərf edəcək, muxtar respublikada digər sahələrlə yanaşı, təhsil sahəsində də davamlı xarakter alan yüksək göstəricilərə nail olacağıq.



*Qurban QURBANOV – Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi:*

– Hər il ölkəmizin paytaxtı Bakı ilə yanaşı, bölgələrdə də mədəniyyət müəssisələri üçün yeni binaların inşa olunması, mövcud binaların yenidən qurulması, bu sahədə çalışanların əməyinin qiymətləndirilməsi davamlı xarakter alıb. Bunu muxtar respublikanın timsalında da görmək mümkündür.

Dövlət başçısının qədim diyarımıza səfərlərində də bunun həmişə şahidi oluruq. Ölkə rəhbəri hər səfərində hansısa mədəniyyət müəssisəsi üçün inşa olunmuş binanın açılışında iştirak edir, tövsiyələrini bildirir. Ölkə Prezidenti cənab İlham Əliyevin Naxçıvan Muxtar Respublikasına dekabrın 1-də səfəri mədəniyyət və incəsənət sahəsində çalışan insanlarda da xoş təəssüratlar yaratmışdır.

Azərbaycan Prezidentinin Naxçıvan Muxtar Respublikasına səfəri zamanı Naxçıvan şəhər 2 nömrəli uşaq musiqi məktəbinin açılışında iştirak etməsi bizə sevinc dolu günlər yaşatdı. Bu gün şəhərimizin ən görkəmli yerində müasir memarlıq üslubunda inşa olunmuş musiqi məktəbində təlim və tədrisin yüksək səviyyədə aparılması üçün hər cür şərait yaradılmışdır. Musiqi məktəbinin yeni binası mədəniyyətə və incəsənətə diqqət və qayğı ilə bərabər, həm də gənc nəslin sabahına qayğının ifadəsidir. Bizə bu sevinci bəxş edən ölkə Prezidenti cənab İlham Əliyevə minnətdarlığımızı bildirir və söz veririk ki, göstərilən qayğını öz əməli fəaliyyətimizlə doğruldacağıq.



*Hikmət ƏHMƏDOV – Naxçıvan Beynəlxalq Hava Limanının direktor müavini:*

– Müasir dünyada hava yolları ilə sərnişin daşınması çox sürətlə inkişaf edən sahələrdəndir. Bu baxımdan sərnişinləri bir neçə saat ərzində mənzil başına çatdıran müxtəlif təyyarələrin enib-qalxdığı Naxçıvan Beynəlxalq Hava Limanı, burada göstərilən xidmətlərin keyfiyyəti, yaradılmış təhlükəsizlik şəraiti həmişə diqqət mərkəzindədir. Blokada vəziyyətində yaşayan muxtar respublikanın ölkəmizin paytaxtına birbaşa çıxışını təmin edən Naxçıvan Beynəlxalq Hava Limanı burada yaşayan əhali üçün həyati əhəmiyyət qazanmışdır. 2004-cü ildə ölkə Prezidenti cənab İlham Əliyevin iştirakı ilə yeni aerovağzal binasının və uçuş-enmə zolağının istifadəyə verilməsi, daha sonra burada aparılan modernləşdirmə işləri bütün hava gəmilərinin qəbul edilib yola salınmasına, hər cür texniki xidmətin göstərilməsinə imkan verir.

Ölkə rəhbərinin Naxçıvana hər səfəri Naxçıvan Beynəlxalq Hava Limanı üçün də çox əlamətdar hadisə kimi yadda qalır. Dövlət başçısının bu il dekabrın 1-də Naxçıvana etdiyi səfər zamanı hava limanında görülmüş yenidənqurma işləri, "Şərq Terminalı" ilə tanışlığı, xidmətlərin səviyyəsini yüksəltmək üçün verdiyi tövsiyə və tapşırıqlar bizdə ruh yüksəkliyi yaratmışdır. Yenidənqurma işləri aparılarkən burada uzunluğu 20 metr olan 2 keçid körpüsü, minik və enişlərin təmin olunması üçün 2 teleskopik trap quraşdırılmışdır. Sərnişinlərin rahatlığı üçün terminalda bütün zəruri tədbirlər görülmüşdür. Hərəkət məhdudiyyəti olan sərnişinlər üçün 2 lift avadanlığı quraşdırılmışdır. Uzunluğu 41 metr olan baqaj konveyeri və eskalatorlar istifadəyə verilmişdir.

Son dövrlərdə Naxçıvan Beynəlxalq Hava Limanında yeni inzibati binanın istifadəyə verilməsi, hava gəmilərinə xidmət göstərən müxtəlif təyinatlı yeni maşın-mexanizmlərin alınması, uçuşların təhlükəsizliyinin təmin olunması və hava limanının fəaliyyətinin dünya standartlarına uyğunlaşdırılması burada göstərilən xidmətləri ən yüksək səviyyədə qurmağa imkan yaradır. Aparılan bu tədbirlər hava limanının sərnişin dövriyyəsini 2 dəfədən çox artıraraq saatda 150-200 nəfərdən 400-450 nəfərə çatdırılmasına imkan verəcək. Bütün bunlar Naxçıvan Beynəlxalq Hava Limanından Bakı, İstanbul və Moskva şəhərlərinə uçan sərnişinlərin rahatlığı üçün çox dəyərli hədiyyədir.

**Hazırladı:**
**Muxtar MƏMMƏDOV**

## Beynəlxalq Əlillər Günü münasibətilə tədbirlər keçirilib

***3 dekabr – Beynəlxalq Əlillər Günü münasibətilə Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təşkilatçılığı ilə Naxçıvan şəhərində və rayon mərkəzlərində sağlamlıq imkanları məhdud şəxslərin iştirakı ilə tədbirlər keçirilib.***



Naxçıvan Əlillərin Bərpa Mərkəzində keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Qadir Əliyev çıxış edərək vurğulayıb ki, muxtar respublikada məhdud fiziki imkanlı şəxslər dövlətimizin hərtərəfli qayğısı ilə əhatə olunublar. Bütün sahələrdə müşahidə olunan dinamik inkişaf bu kateqoriyadan olan şəxslərin də sosial müdafiəsinin güclənməsinə imkanlar yaradıb. Məhdud fiziki imkanlı insanlara tibbi və sosial reabilitasiya xidməti göstərilir, müharibə əlilləri minik avtomobilləri ilə təmin olunur, sağlamlıq imkanları məhdud olan insanların mənzil-məişət şəraitləri yaxşılaşdırılır, müvafiq kateqoriyadan olan şəxslərə təqaüd və sosial müavinətlər ödənilir, həmçinin onların cəmiyyətə inteqrasiyası, habelə asudə vaxtlarının səmərəli təşkili istiqamətində davamlı tədbirlər həyata keçirilir.

Qeyd edək ki, həmin gün muxtar respublikanın rayon mərkəzlərində də Beynəlxalq Əlillər Günü münasibətilə tədbirlər keçirilib. Tədbirlərdə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin və rayon icra hakimiyyətlərinin nümayəndələri çıxış edərək məhdud fiziki imkanlı şəxslərin sosial müdafiəsinin yaxşılaşması məqsədilə həyata keçirilən tədbirlərdən danışıblar.

Sağlamlıq imkanları məhdud ifaçılardan ibarət musiqi qrupu Culfa rayonunda keçirilən tədbirdə iştirakçılar qarşısında konsert proqramı ilə çıxış edib.

Tədbirlərdə, ümumilikdə, məhdud fiziki imkanlı 1000 şəxsə sovqat təqdim olunub.

Görüşlərdə iştirak edə bilməyən məhdud fiziki imkanlı şəxslərə evlərində baş çəkilib, onlara sovqat verilib.

Məhdud fiziki imkanlı şəxslər onlara göstərilən diqqət və qayğıya görə dövlətimizə minnətdarlıqlarını bildiriblər.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

## Əmək yarmarkasına 262 boş iş yeri çıxarılmışdı

***Dekabrın 3-də Şərur şəhərindəki Mədəniyyət Sarayında keçirilən növbəti əmək yarmarkasını Şərur Rayon Məşğulluq Mərkəzinin direktoru Məmməd Məmmədov açaraq rayonda əhalinin məşğulluğu istiqamətində həyata keçirilən tədbirlərdən danışıb.***

O deyib ki, işaxtaran vətəndaşların, xüsusilə gənclərin işlə təmin olunması sahəsində mühüm əhəmiyyət kəsb edən tədbirlərdən biri də əmək yarmarkalarıdır. Muxtar respublikanın məşğulluq mərkəzləri işlərini təmsil etdikləri bölgələrdə idarə, müəssisə və təşkilatlarla əlaqəli şəkildə quraraq boş iş yerləri haqqında məlumatlar toplayır, əmək yarmarkalarında həmin yerləri qeyri-məşğul vətəndaşlara təqdim edirlər. Şərur Rayon Məşğulluq Mərkəzi də fəaliyyətini bu istiqamətdə qurub. İlin əvvəlindən keçirilən yarmarkalarda 103 nəfər vətəndaş daimi işlə, kənd təsərrüfatı sahəsində mövsümi işlərlə əlaqədar 59 nəfər müvəqqəti işlə təmin olunub, 55 nəfər peşəyönümü kurslarına cəlb edilib.

Şərur Rayon İcra Hakimiyyətinin əməkdaşı Füzuli Hüseynov çıxışında bildirib ki, yaradılan yeni infrastruktur, aparılan genişmiqyaslı tikinti-quruculuq işləri, yeni sənaye və emal müəssisələrinin, istehsal sahələrinin işə salınması Şərur rayonunda əhalinin məşğulluğunun təmin olunmasına xidmət edir. Bölgədə həyata keçirilən məşğulluq tədbirləri əhalinin sosial müdafiəsinin gücləndirilməsində, insanların daimi işlə təminatında mühüm rol oynayır və sakinlər tərəfindən onlara göstərilən yüksək qayğı kimi dəyərləndirilir.

30 müəssisə və təşkilatdan 262 boş iş yerinin çıxarıldığı yarmarkada 22 nəfərə işə göndəriş verilib.

**Elman MƏMMƏDOV**

*Bu rubrika ilə veriləcək yazılarımızda orta əsrlər dövründən başlayaraq müasir dövrümüzədək Naxçıvan torpağının yetişdirdiyi dahilərdən, məşhur şəxsiyyətlərdən söhbət açacağıq. İlk yazımız Şərq aləmində tanınmış filosof və həkim Nəcməddin Əhməd Əbubəkr oğlu Naxçıvani haqqındadır. Bu yaxınlarda Naxçıvan şəhərindəki Nəcməddin Naxçıvani küçəsində olduq. Şərq dünyasına öz adını qızıl hərflərlə həkk edən, Qərbin mərkəzlərində əsərləri qorunan bu şəxsiyyəti, görəsən, bu küçədə yaşayan, bu küçədən keçib işinə, evinə tələsən insanlar tanıyırmı? düşüncəsi ilə Nəcməddin Naxçıvani kimdir? sualını ətrafımdakı insanlara versəm də, onun haqqında tam dolğun məlumat ala bilmədim... Hətta Nəcməddin Naxçıvani adını ilk dəfə eşidirmiş kimi dönüb küçənin adına maraqla baxanlar da tapıldı. Öz fəlsəfi fikirləri ilə şöhrət qazanan, əsərləri dünyanın elm və mədəniyyət beşiklərindən sayılan bir çox şəhərdə mühafizə edilən bu görkəmli şəxsiyyət haqqında oxuculara ətraflı məlumat vermək istədik.*

*Unutsaq unudularıq*

## Nəcməddin Naxçıvani haqqında nə bilirik?

Əlyazma mətnlərdə orta əsr Naxçıvan tibb elminin inkişafında əvəzsiz xidmətləri olan böyük şəxsiyyətlərin yetişdiyi göstərilir. Bunlardan biri də Şərq aləmində tanınmış filosof və həkim Nəcməddin Naxçıvanidir. O, öz dövrünün böyük filosof və mütəfəkkiri olmaqla yanaşı, həm də tibb sahəsində zəngin biliyə malik şəxsiyyət kimi tanınmışdır. N.Naxçıvani Naxçıvanda təhsil almış, elmin bütün sahələrini mükəmməl öyrənmişdir. Ömrünün müəyyən hissəsini Azərbaycanda yaşamış, Marağa rəsədxanasında çalışmışdır. XIII əsrdə yaşamış Nəcməddin Naxçıvani özünün fəlsəfə, tibb, məntiq və təbiət elmlərinə dair əsərləri ilə Yaxın və Orta Şərq ölkələrində şöhrət tapmışdır. Nəsirəddin Tusinin tələbəsi, məşhur alim İbn əl-İbri (1226-1286) Nəcməddin Naxçıvani barədə yazırdı: "O, böyük fəzilət sahibi, dəqiq elmlərin dərindən bilicisi idi. Öz vətənində fəlsəfə ilə məşğul olurdu. Ölkələri səyahətə çıxdı, xeyli gəzib dolaşdı, axırda Kiçik Asiyaya daxil oldu, böyük mənsəblər tutdu. Oradan Suriyaya yola düşdü".

Naxçıvanın filosof və təbibinin, həmçinin böyük mütəfəkkir-aliminin haqqında Məhəmməd Bağır Xansari (1811-1895) yazır: "O böyük şəxsiyyət Naxçıvan şəhərindən idi və İbn Sinanın əsərlərinə şərhlər yazırdı".

Qeyd edək ki, dahi filosof haqqında məlumatlara bir çox mənbələr və təzkirələrdə rast gəlinir. Əlyazmalarda filosof və həkim Nəcməddin Naxçıvani haqqında belə deyilir: "Naxçıvani bir filosof kimi Şərq peripatetizminin mükəmməl bilicisi olmuş, ancaq ardıcıl aristotelçi olmamışdır. O, İbn Sinanın kitablarını tənqidi planda araşdırmış, onun bəzi doktrinalarına qarşı öz etirazını bildirmişdir. Mübahisə doğuran fəlsəfi məsələlərdən biri nəfsə dair idi. İnsan cisminin məhvindən sonra nəfsin yaşamasına inanan Naxçıvani Şərq peripatetiklərinin əleyhinə olaraq İbn əl-İbraninin qeyd etdiyi kimi, "tənəsüx təliminə" güclü meyil etmişdir".

XIII əsrdə yəhudi filosofu İbn Kəmmunə İsraili də başqaları kimi Nəcməddin Naxçıvaninin əsərlərinə şərh yazaraq peripatetik fəlsəfə ilə ona qarşı yönəldilmiş tənqidi fikirləri barışdırmağa səy göstərmişdir. Xucəndi isə Nəcməddin Naxçıvaninin İbn Sina təliminə dair dediyi tənqidi fikirləri qəbul etməmişdir.

Filosofun bir neçə əsəri bütün dünyada tanınır. "Məntiqin məğzi və fəlsəfənin xülasəsi" ("Lübab əl-məntiq və xülasət əl-hikmət") traktatının bir əlyazması Nəcəf şəhərində mühafizə edilir. Onun İbn Sinanın "Tibb qanunu" ("əl-Qanun fi-tibb") kitabına yazdığı şərh Parisdə, "İşarələr və qeydlər" ("əl-İşarət vət-tənbihat") kitabına yazdığı şərh İstanbulda saxlanılır.

Naxçıvanlı həkim haqqında rast gəldiyimiz bu maraqlı məlumatlar qədim diyarımızın mədəniyyət mərkəzlərindən biri kimi, məşhur şairlər, nasirlər, elm və mədəniyyət xadimləri yetirən torpaq kimi tarix boyu diqqət mərkəzində olduğunun səbəbini bir daha açıqlayır.

Bəli, Naxçıvan mühiti tarixin hər dövründə dəyərli ziyalılar yetirmişdir. Kəngərlilər, Şahtaxtinskilər, Hinduşahlar və sair kimi adlı-sanlı nəsillərin yurd yeri olan Naxçıvan torpağı keçmişdə də, müasir dövrdə də elmin, mədəniyyətin beşiyi olmuşdur.

Əvvəllər mühitlərin bir-birinə təsiri elm adamlarının tanış olduğu diqqətçəkən və yeniliyin duyulduğu materialların səyyahlar tərəfindən öz ölkələrinə aparılması, ya da əsərlərində bu məlumatlardan bəhs edib onu əsaslandırması hesabına yayılırdı. Ərazidən-əraziyə daşınan fikirlər daşındığı regionun tələblərinə uyğun istiqamət və mövqe dəyişdirirdisə də, ümumiləşmiş fikir olduğu kimi qalırdı. Qısaca, yarandığı yerdən qoparılmağa cəhd olunan insanlar kimi, fikirlər də nə qədər dəyişikliyə məruz qalırlarsa-qalsınlar məxsus olduqları regionun izlərini daşımaqdadırlar. Bu, dildə də, ədəbiyyatda da, tarixdə də, incəsənətdə və sair sahələrdə də belədir. Bəzi əsərlərdə isə ortaq arqumentlər, ortaq fikirlər nəzərə çarpır. Bu oxşarlıqlar, fərqliliklər, bəhrələnmə, istinadlar, icazəli və icazəsiz köçürmələr, xalqların ortaq mədəniyyətlərinin tədqiqi zamanı ortaya çıxan və mübahisələrə səbəb olan başlıca amillərdir.

Son olaraq onu vurğulamağa ehtiyac var ki, bu gün ölkəmizdə, eləcə də muxtar respublikamızda dünənə böyük ehtiram var. İndi naxçıvanlı bir çox sənətkarın əsərləri yenidən nəşr olunur, folklor nümunələri toplanılır, nəşr edilir, bununla birlikdə Naxçıvandan uzaq düşmüş şəxsiyyətlərin əsərləri axtarılıb tapılır, özümüzə qaytarılır. Bu yolda uğurlu və məqsədyönlü tədbirlər davam etdirilməkdədir. Bizim borcumuz isə mədəniyyətimizə, tariximizə, folklorumuza, milli dəyərlərimizə sahib çıxmaq, onları qorumaq və gələcək nəsillərə çatdırmaqdır.

**Nərgiz İSMAYILOVA**

*Yeni nəşrlər*

## "Anatomiya, fiziologiya və patologiyanın əsasları"

***Naxçıvan Tibb Kollecinin direktoru, tibb üzrə fəlsəfə doktoru İlhamə Mustafayeva, kollecin müəllimləri Mehri Seyidbəyli, Xəyalə Çələbinin "Anatomiya, fiziologiya və patologiyanın əsasları" adlı kitabı "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində yüksək poliqrafik keyfiyyətlə çap olunmuşdur.***




Kitab tibb kolleclərinin tədris proqramına uyğun metodik göstərişlər əsasında tərtib edilmişdir. Kitabda insan orqanizminin quruluşu, ayrı-ayrı orqanların funksiyası və patologiyası zamanı orqanlarda və tam orqanizmdə baş verən dəyişikliklər, maddələr mübadiləsi, enerji çevrilmələri prosesləri, həyat üçün vacib olan vitaminlər və onların əhəmiyyəti, həmçinin bioloji aktiv maddələrin mübadilə pozğunluqlarında törənən patoloji təzahürlər haqqında məlumatlar verilmişdir.

Təbabətin əsasını normal və patoloji anatomiya ilə çox vəhdətdə olan normal və patoloji fiziologiya təşkil edir. Çünki hər hansı bir orqanın nisbi normaya aid quruluşunu, funksiyasını bilmədən onun xəstəliklərinin etiopatogenezi barədə mülahizə yürütmək mümkün deyildir.

Tibb kolleclərində bu fənlər bir proqram əsasında birləşdiriləndə normal orqanizmin quruluş və funksiyalarını öyrənməklə yanaşı, patologiyaya keçidin ümumi məsələlərini də öyrədir. Burada xüsusi patologiyaya aid müəyyən anlayışlar verilərək klinik fənlərlə patologiyalar arasında əlaqə olduğu aydınlaşdırılır.

Anatomiya, fiziologiya və patologiya fənnindən latın qrafikası ilə Azərbaycan dilində dərsliyin olmaması həm müəllimlərin, həm də tələbələrin işində çətinliklər yaradır, müəllimləri dərs saatını, demək olar ki, bütünlüklə mühazirə materialını yazdırmağa məcbur edirdi. Yeni kitabın nəşri ilə artıq bu çətinlik aradan qaldırılacaqdır.

Rusiya Tibb Akademiyasının akademiki, professor Vaqif Şadlinskinin ümumi redaktorluğu, Azərbaycan Tibb Universitetinin İnsan anatomiyası kafedrasının professoru, tibb elmləri doktoru A.İsayev, Azərbaycan Tibb Universitetinin İnsan anatomiyası kafedrasının dosenti, tibb elmləri doktoru B.Hüseynov, Naxçıvan Dövlət Universitetinin Ümumi təbabət və gigiyena kafedrasının müdiri, Naxçıvan Muxtar Respublikasının Əməkdar həkimi, tibb üzrə fəlsəfə doktoru, dosent M.İbrahimov və akademik M.A.Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzinin doktorantı, Naxçıvan Muxtar Respublika Xəstəxanasının cərrahı, tibb üzrə fəlsəfə doktoru E.Babəylinin rəyləri ilə nəşr olunan dərslik Mamalıq işi, Müalicə işi və Tibb bacısı işi ixtisasları üçün tərtib olunan proqramı əhatə etməklə, 24 fəsildən, 255 səhifədən, 45 rəngli şəkil və 16 atlas tablolarından ibarətdir. Dərsliyin sonunda mətndə istifadə olunan latın terminlərinin lüğəti verilmişdir. Bu kitabdan yalnız tibb kolleclərinin tələbələri deyil, universitetlərin Biologiya ixtisası tələbələri, elmi-tədqiqat işi aparan müəllimlər, orta məktəblərin biologiya müəllimləri də istifadə edə bilərlər.

**Hüseyn ƏSGƏROV**

## "Gənclik" Xalq Teatrı "Şöhrət ardınca" komediyasını tamaşaçılara təqdim etmişdir





Naxçıvan Şəhər "Gənclik" Xalq Teatrı Tofiq Həsənovun "Şöhrət ardınca" birpərdəli komediyasını tamaşaçılara təqdim etmişdir. Tamaşadan əvvəl Naxçıvan Şəhər Mədəniyyət və Turizm Şöbəsinin müdiri, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi İmamqulu Əhmədov çıxış edərək bildirmişdir ki, Naxçıvan Şəhər Xalq Teatrı 1973-cü ildən Naxçıvan şəhər 1 nömrəli mədəniyyət evində dram dərnəyi kimi fəaliyyətə başlamış, 1978-ci ildə kollektivə xalq teatrı statusu verilmişdir.

Teatrın səhnəsində müxtəlif illərdə maraqlı səhnə əsərləri oynanılmışdır. "Ezop", "Bəxtsiz cavan", "Ana", "Məhəbbət nişanəsi", "Durna", "Yollara iz düşür", "Vaqif" kimi pyeslər xalq teatrının kollektivi tərəfindən uğurla səhnəyə qoyulmuşdur. Bu xalq teatrının səhnəsində vaxtilə çalışmış bir sıra aktyor və aktrisalar Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının fəxri adlarına layiq görülməklə, bu gün də teatr sənətimizə öz töhfələrini verirlər.

Sonra Tofiq Həsənovun "Şöhrət ardınca" birpərdəli pyesi göstərilmişdir. Kiçikhəcmli bu pyesin mövzusu sosializm quruluşu dövründə Azərbaycanın bir taxılçılıq və heyvandarlıq təsərrüfatından alınmışdır. Kolxozun sədri Zəbi Qəniyev (aktyor Abbas İsmayılov) vəzifəsindən sui-istifadə edərək təsərrüfatda əliəyriliklə məşğuldur. Qarşıya qoyulmuş planları yerinə yetirə bilməyən bu fərsiz kolxoz sədrinin hesabdarı Sədrəddin (aktyor Akif Əsədov) də ondan geri qalmır. Vəzifə və pul hərisliyi təsərrüfatın bərbad hala düşməsinə səbəb olur.

Tamaşada Sultan Səfərovun və Qəmər Babayevanın yaratdıqları Həlimov və Solmaz surətləri də təbii və canlı olmaqla tamaşaçını cəlb edir. Qeyd edək ki, tamaşa sovet təsərrüfat sisteminin eybəcərliklərini, eyni zamanda vəzifəsinin öhdəsindən gələ bilməyən təsərrüfat rəhbərlərinin şöhrət dalınca qaçmasını göstərirsə də, maraqlı dialoqlar, gülüşdoğuran səhnələrlə tamaşaçılarda xoş ovqat yaradır. Tamaşaçı yeni tariximizin həyat və məişət səhnələrinin şahidi olur.

Tamaşanın sonunda öz saxta işlərinin qurbanı olan kolxoz sədri Qəniyevə qarşı duran hesabdar Sədrəddinin dialoqu tamaşada gülüşü bir qədər də artırır, saxtalıqla qazanılan şöhrətin aqibətini tamaşaçıya çatdırır.

Qeyd edək ki, "Şöhrət ardınca" tamaşasının musiqi tərtibatçısı Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi İmamqulu Əhmədov, rəssamı Günel Mustafayevadır.

**Əli RZAYEV**

## Aztəminatlı ailəyə baş çəkilib

***Dekabrın 2-də Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Səhiyyə, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliklərinin birgə təşkilatçılığı ilə Naxçıvan şəhərində yaşayan aztəminatlı Həsənovlar ailəsinə baş çəkilib.***

Ailə ilə görüş zamanı Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin şöbə müdiri Sahir Rüstəmov, Naxçıvan Şəhər Əhalinin Sosial Müdafiəsi Mərkəzinin direktoru Malik Tarverdiyev bildiriblər ki, muxtar respublikada aparılan uğurlu sosial siyasətin əsas məqsədi ailələrin rifah halını yaxşılaşdırmaqdır. Bunun üçün yeni iş yerləri açılıb, əhalinin məşğulluğu təmin edilib, vətəndaşlarımızın gəlirlərinin davamlı və sabit artım tempi formalaşdırılıb. İqtisadi layihələrdən əldə edilən gəlirlər hesabına sosial proqramlar genişləndirilib, nəticə olaraq əhalinin sosial müdafiəsi daha da gücləndirilib. Aztəminatlı ailələrə görüşlərin keçirilməsi də həmin ailələrin sosial vəziyyətini yaxşılaşdırmaq məqsədi daşıyır.

Sonra aztəminatlı ailənin yaşayış şəraiti ilə maraqlanılıb, ailə üzvləri tibbi müayinədən keçirilib, onlara ərzaq payı verilib.

Sonda ailənin üzvləri göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

*İtmişdir*

Naxçıvan şəhəri, Əziz Əliyev küçəsi, döngə 2, ev 10-da yaşayan Gözəlova Çimnaz Məmməd qızının adına olan evin 4207 inventar nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 4020. Sifariş № 913